Ədəbiyyat qəzeti.- 2022.- 28 may. S. 13.

# Anarın yeni kitabı Türkiyədə nəşr olunub




Xalq yazıçısı Anarın "Türkün sözü" kitabı qardaş Türkiyədə "Korkut" yayınevi tərəfindən nəfis şəkildə nəşr olunub. Kitabda Xalq yazıçısının "Türkün sözü (Düşüncələr)", "Odlar yurdunun söz və sənət sərvətləri", "Dilimizi yaşadanlar" adlı elmi-təhlili əsərləri yer alıb. İstər "Türkün sözü (Düşüncələr)" adlı elmi incələmələrdə, istərsə də adı çəkilən digər araşdırmalarda müəllifin ümumtürk ədəbiyyatına, ümumtürk dil qanunlarına və gəlişmələrinə heyrətamiz dərəcədə bələdliyi göz önündədir. Bu yazılanlar, elmi-nəzəri fikir camimizə təqdim edilənlər bütövlükdə, ayrıca bir institutun uzun onilliklər bahasına elmi dairələrə yönəldə biləcəyi araşdırma faktı qədər əhatəli və mükəmməldir. Xalq yazıçısı, əsasən, Türk-Oğuz ləhcələrində qələmə alınmış poeziya inciləri nümunələri əsasında diqqətə çatdırdığı aldığı araşdırmasında türkdilli ədəbiyyatımızın tarixi qaynaqlarına sonsuz sayğı, ehtiram duyğuları ilə nəzər yetirib. Tarixlə çağdaşlığı iç-içə, nəfəs-nəfəsə təqdim edib. Yazılı ədəbiyyatımızla şifahi söz sənətimiz arasındakı bağlar və frəqli nüanslara, bu fərqliliyin tarixi səbəblərinə Anar müəllim peşəkar mülahizələri ilə aydınlıq gətirib.

"Türkün sözü" tanınmış yazıçı Mehmet Nuri Parmaksızın Türkiyə türkcəsinə uyğunlaşdırmasıyla nəşr olunub.

*Sərvaz Hüseynoğlu*